*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    20 noyabr 2019-cu il    № 90 (2407)    Qiyməti 30 qəpik


*Ön xətdən reportaj*

## “O yollar qələbə yolu olacaq!”



Payıza qızılı payız deyirlər...

Qızılı payızın son ayıdı...

Bütün məmləkət boyunca könüllər 2016-cı ilin yaz ovqatına niyyətlidi. Orduya güvənənlər inanır ki, bu gözəl niyyəti Ali Baş Komandanın əmriylə yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan əsgəri tarixi vəzifə olaraq gerçəkləşdirəcək.

Bu payız səhərində də başlanğıcı müqəddəslik olan bu inamın işığında aydınlığıyla görünür ki, Azərbaycan əsgəri Vətənin arzuladığı kimi xidmət edir, aydınlığıyla duyulur ki, Azərbaycan əsgəri gözəl düşünür. Ürəyinin gözü ilə baxanlar bu gözəl düşüncələrin Azərbaycan Ordusuna inananların, güvənənlərin düşüncələriylə gözəl qoşalaşdığını da aydınlığıyla görür, duyur, hiss edir.

Əsgərlərin əhatəsində olanlar səngərdə döyüş əzmi, döyüş əzmində qələbə ruhu hiss edənlərə elə gəlir ki, o da əsgərdi, o da əsgərlərin sırasında səngərdən çıxacaq, döyüşəcək...

Zabit Babək Səmidli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" - bəyanatı haqqında dəyərli bir fikir bildirir: bu bəyanat Azərbaycan əsgərinin qələbə ruhunun bəyanatıdır. Səngərdə söhbətə bu fikri xatırlatmaqla başlayırıq:

**(Ardı 3-cü səhifədə)**



Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun heykəlinin açılışı oldu

4-cü səhifədə



“Hər əsgəri oğlum bilirəm”

6-cı səhifədə



Vətənsevərlik

7-ci səhifədə



Daha güclü, daha çevik

8-ci səhifədə

# Müdafiə naziri əməliyyat təliminin yekunlarına dair xidməti müşavirə keçirib

*Noyabrın 16-da Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında Azərbaycan Ordusu miqyasında keçirilən əməliyyat təliminin yekunlarına dair xidməti müşavirə keçirilib.*



Nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən əməliyyat təliminin nəticələrini təhlil edərək Müdafiə naziri qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirildiyini bildirib, komandir heyətinin qoşunları idarə etmək bacarığını, ümumilikdə hərbi qulluqçuların peşəkarlıq səviyyəsini yüksək qiymətləndirib.

Müdafiə naziri təlimin əhəmiyyətini qeyd edərək, Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdırıb, döyüş hazırlığının daha da artırılması məqsədilə müxtəlif səviyyələrdə təlim və məşqlərin sayının və effektivliyinin artırılmasını əmr edib.

General-polkovnik Zakir Həsənov ön xətdə yerləşən bölmələrin döyüş hazırlığı, müdafiə sisteminin hərtərəfli təminatı, döyüş növbətçiliyinin və qoşunların döyüş qabiliyyətinin daha da təkmilləşdirilməsi ilə əlaqədar müvafiq göstəriş verib.

Müşavirədə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsi işinin real faktlardan istifadə edərək qəhrəmanlıq nümunələrinə əsaslanmaqla həyata keçirilməsinin, hərbi qulluqçuların Vətənə, dövlətə və Ali Baş Komandana misilsiz sədaqət ruhunda tərbiyə olunmasının vacibliyi qeyd olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat təliminin sonuncu mərhələsi keçirilib

*Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə keçirilən genişmiqyaslı əməliyyat təliminin sonuncu mərhələsi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimin sonuncu mərhələsində müxtəlif poliqon və təlim mərkəzlərinə çıxarılan birləşmə və hissələrin qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi, o cümlədən atışların praktiki icrası səviyyəsi yoxlanılıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat təlimi noyabrın 12-də başlayıb.

Üç mərhələdə keçirilən təlimin əsas məqsədi şərti düşmənin təxribatlarının qarşısını almaqla hücum əməliyyatlarının aparılması zamanı qərargahların və qoşunların idarəetmə orqanlarının hazırlığının, eləcə də ümumqoşun birlikləri, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, Xüsusi Təyinatlı Qüvvələr arasında qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsidir.

Əməliyyat təlimində qoşunların dayanıqlı, fasiləsiz, operativ və gizli idarəedilməsi, qərargahların səhra idarəetmə məntəqələrinin fəaliyyətinin təkmilləşdirilməsi, videokonfranslar və fiberoptik kommunikasiya xətləri vasitəsi ilə sərəncam və əmrlərin taktiki və əməliyyat səviyyəsində sürətli ötürülməsi və şəraitə uyğun olaraq qərarların qəbul edilməsi üzrə vərdişlər məşq etdirilib.

# Əməliyyat təlimi çərçivəsində Naxçıvan Qarnizonu qoşunları ilə ərazidə keçirilən çoxpilləli komanda-qərargah təlimi plana uyğun olaraq başa çatıb

*Təlimin üçüncü mərhələsində qəbul edilmiş qərara əsasən, praktiki fəaliyyətlərə cəlb edilmiş birinci eşelon bölmələri məhdudgörmə şəraitində şərti düşmənin hücumunu dəf edib, artilleriya və aviasiya bölmələrinin atəşi ilə maksimum zərbə endirərək taktiki qrupun hücuma keçməsi üçün əlverişli şərait yaradıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, gecənin qaranlığında tank, piyada, mühəndis-istehkam, hava hücumundan müdafiə və tank əleyhinə bölmələr tərkibindən yaradılmış tabor taktiki qrupları ötüb keçən dəstələrlə qarşılıqlı əlaqədə hücuma keçərək müdafiəyə soxulmuş düşməni məhv ediblər.

Havanın işıqlanması ilə ehtiyatda olan bir neçə tabor və bölük taktiki qrupları döyüşə salınaraq raket-artilleriya və aviasiya bölmələrinin atəş dəstəyi ilə hücumu dərinliyə doğru inkişaf etdirib, itirilmiş vəziyyəti əlverişli hədlər üzrə bərpa ediblər.

Təlimin yekunu keçirilən zaman bildirilib ki, yaranmış vəziyyəti düzgün qiymətləndirən qərargahlar müasir döyüşün planlaşdırılması, aparılması və idarə edilməsində müsbət nəticələr göstərib, praktiki fəaliyyətlərə cəlb edilmiş bölmələr gündüz və gecə şəraitində tapşırıqların yerinə yetirilməsində yüksək peşəkarlıq nümayiş etdiriblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***19 noyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "O yollar qələbə yolu olacaq!"

(Əvvəli 1-ci səhifədə)

- Bayaq zabit Babək Səmidli bu bəyanatı sizin qələbə ruhunuzun bəyanatı adlandırdı. Siz nə deyirsiniz?

Səngərlərdə konkret mövzu ətrafında söhbətlərdə əsgərlər müəyyən məqamdan sonra fəallaşırlar. Fəallaşma tədbirin gedişini diqqətlə izləməkdi, fikir deməyə meyillənməkdi, bu və ya digər fikirlə razılaşmaqdı. Əsgərlərin fəallaşdığını görmək nə qədər xoşdu, nə qədər gözəl könül xoşluğudu! - sualım əsgərləri fəallaşdırır. Bəyanatın beynəlxalq aləmdə kifayət qədər təsirli əks-sədası səngərdə duyğusallıqla yaşanılır, yaşadılır. Zabitin fikrinin əsgərləri qürurlandırdığı ilkin olaraq baxışlardan hiss edilir. Bəyanata da, zabitin dediklərinə də münasibət əsgərlərin dünyagörüşünün ifadəsi kimi dinlənilir.

Zabit Ruslan Novruzov deyir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi sülh yoluyla həll edilməzsə, bu bəyanatı həm də döyüşə səfərbəretmə bəyanatı biləcəyik.

Zabit Daşqın Ələkbərov deyir ki, bu bəyanatı "Azərbaycan Ordusu" qəzetində qürurla oxuduq.

- "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatını ən böyük azərbaycanlının siyasi kursunu uğurla davam etdirən ən böyük azərbaycançılığın bəyanatı bilməyin qürurudu, - deyirəm.

Zabit Sərxan Muxtarov sözümə qüvvət kimi deyir:

- Sizin yaşadığınız həmin qürur 2016-cı ilin Aprel döyüşlərindən sonra Lələtəpədə, Bayraqtəpədə yaşanılan qürurun eyni olub.

Çavuş Nurəddin Əsgərli zabit Daşqın Ələkbərova xitabən deyir ki, həmin qürur Bakıda Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradların qürurunu xatırladan qürur olub, biz əsgərlər bəyanatın qürurunu həm də o paradların qüruru kimi yaşadıq. Əsgərin dedikləri bayaqdan bəri gözəl könül xoşluğuna dönmüş ovqatımızın bənzərsiz haləsi olur.

Zabit Möhraz Əhmədov deyir ki, bu bəyanatın mahiyyəti bizdən Ali Baş Komandanın, Müdafiə Nazirliyinin rəhbərliyinin əmr və göstərişlərini bundan sonra da böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir. Ordumuz bu bəyanatı ərazi bütövlüyümüzün bərpasında mühüm dövlətçilik qətiyyəti bilir.



- Bizim hərbi hissənin əsgərləri də əmindirlər ki, işğalçı Ermənistan torpaqlarımızdan geri çəkilməsə, bu bəyanatı döyüş əmri tamamlayacaq, - zabit Ramil Siraclı belə deyir. Mənə elə gəlir ki, zabitin əminliyi əsgərlərin baxışlarının dolaşığını açmaqda, düşüncələrini nizama düzməkdədi.



Kiçik çavuş Vasif Ağalarov soruşur ki, bu bəyanata torpaqlarımızı işğaldan azad etməsinə görə Ermənistana və onun tərəfində olanlara xəbərdarlıq deyə bilərikmi?

Zabit əsgərlərə xitabən deyir:

- Əsgər yoldaşınızın sorğusuna necə cavab verərdiniz?

Əsgər Qurban Kosayev, "Əlbəttə ki, xəbərdarlıqdır. Torpaqlarımızdan çəkilib getməsə, düşmən döyüşlə tamamilə məhv olacaq", - deyir və yoldaşlarına baxır. Əsgərlərin Qurbanın dediklərindən məmnunluğunu sezmək çətin deyil.

- Bu günlərdə Qoşulmama Hərəkatının Bakıda keçirilən toplantısında 120 dövlət Ermənistanı rəsmən işğalçı dövlət kimi tanıdı. Zənnimcə, Soçidə ictimailəşən bəyanatla 120 dövlətin qəbul etdiyi birgə qətnamə arasında məntiqi bağlılıq var, - deyirəm.

- Düşünürəm ki, o bağlılıq dövlətçilikdir. Tanıma münaqişənin nəticəsinə dövlətin münasibətidir. Qoşulmama Hərəkatını təmsil edən 120 dövlətin Ermənistanı işğalçı dövlət kimi tanıması Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yoluyla həlli istiqamətində mühüm beynəlxalq müdaxilə hesab edilə bilər, ancaq Ermənistan işğalı sonlandırmasa, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Soçidə ictimailəşdirdiyi fikrini döyüş əmri tamamlayacağını qətnaməni imzalayan dövlətlər də bilir, digər dövlətlər də, - zabit Ruslan Novruzovun qətiyyətini biz də hiss edirik, əsgərlər də hiss edir.

- Bu mövqedə döyüş növbətçiliyi aparan əsgərlər də həmin əmrin icraçısı kimi Böyük Qələbəni qazanacaq əsgərlərin sırasında olmaq istəyir, yəni, bu bəyanat, həqiqətən, Azərbaycan əsgərinin qələbə ruhunun bəyanatıdır, - zabit belə deyir.

- Bu bəyanat azərbaycançılıq məfkurəsinin bəyanatıdır və hər bir azərbaycanlını - hərbçini də, mülkini də qələbəylə nəticələnəcək döyüşlərə səfərbər edir, - əsgər Səfər Mürvətov əsgərlər adından belə deyir.

Ön xətdə, səngərdə əsgərlərin əhatəsində soruşuram - cavab alıram, soruşurlar - cavab alırlar. Səmimi cavablar onlara da, mənə də könül xoşluğu verir. Söz sözü çəkir, söz sözə söykək olur, bir söz digərinin davamı kimi dinlənilir. Söhbətimizi mahiyyəti vətənpərvərlik olan bir mövzuyla davam etdiririk; döyüş növbətçiliyi haqqında bildiklərimi də, bilmədiklərimi də böyük maraqla dinləyirəm. Bu söhbəti bildiklərimi təkmilləşdirən, genişləndirən, bilmədiklərimi öyrədən dərs bilirəm.

- Müharibə şəraitində Vətən, torpaq kəlmələrinin mahiyyəti ön xətdə, səngərlərdə döyüş növbətçiliyiylə bağlıdı. Döyüş növbətçiliyi qətiyyətdi, Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətdi, - deyirəm. Zabit Ruslan Novruzov səmimiyyətlə razılaşır və zəruri əlavələr də deyir:

- Məhz buna görə də ön xətdə xidmət daha məsuliyyətlidir. Ön xətt, müəyyən mənada, səngər deməkdir. Düşmən həmişə niyyətini gizlətməyə çalışır. Gizliliyi nə qədər qorumaq istəsə də, Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığı buna imkan vermir. Atəşkəsi pozmaq, təxribatlar törətmək istəyən düşmənin bütün hərəkətləri döyüş növbətçiliyiylə izlənilir.

Əsgərlərə baxıram, yəni, siz nə deyirsiniz. Əsgərlərin diqqəti qarşı tərəfdədi. Bu baxışların döyüş əzmindən, qələbə ruhundan rişələndiyini sezmək çətin deyil. "Onların eynini ön xətdə bütün səngərlərdə görürük" kəlmələrini tamamlamağa macal tapmamış əsgərlərdən biri deyir ki, döyüş növbətçiliyini əsgər aparmır, əsgərin timsalında Vətən sevgisi aparır.

Bu fikrə görə, belə gərəkli düşüncəyə görə əsgəri bağrıma basmazdımmı? Onu qoşa qollarım arasına almazdımmı, bayraq əvəzi başım üstünə dikəltməzdimmi? Ululuğun belə dərki, ona verilən belə möhtəşəm dəyər hamımızın ürəyini dağa döndərir. Zabitin baxışlarında qədərsiz ehtiram, qürur görünür. Bu ehtiramı əsgərlər də, mən də ruhun yaşarılığının təntənəsi bilirik...



Ön xətdə əsgərlərin düşüncələrini, dövlətlə, dövlətçiliklə bağlı olan bu və ya digər fakta, hadisəyə münasibətini həmişə qədərsiz maraqla, maraq formatında istəklə dinləmişəm. Dinləyə-dinləyə qürurlanmışam, qürurlana-qürurlana dinləmişəm. Dönməz qətiyyətlə bir daha inanmışam ki, "Azərbaycan əsgəri" və "Vətən sevgisi" söz birləşmələri arasında fərq yoxdu. Hamımız 2016-cı ilin yaz ovqatının təşnəsiyik. Bu ovqatı yaşadanların əhatəsində olanda bütün varlığınla hiss edirsən ki, qələbə ərəfəsindəyik. Aprel döyüşlərinin xatırlamaları yenə düşüncələrinizə sığal çəkir. Bu gün döyüş növbətçiliyi aparan əsgərlər o döyüşlərdə tarix yazanların davamçıları kimi nə deyirlər?

- Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacağıq (əsgər İslam Abbasov).

- Torpaqlarımızın işğaldan azad edilməsi üçün şəhidlərimizin ruhunun arzuladığı kimi döyüşəcəyik (əsgər Sərxan Babakişiyev).

Əsgərlərin Vətən sevgisini dövlətə, dövlətçiliyə sədaqət bilirəm. Zabit Ruslan Novruzov gümanımı təsdiqləyir:

- Bu əsgərlərin, onların timsalında ordumuzun bütün əsgərlərinin qətiyyəti, inamı, dövlətə sədaqəti ordunun gücü deməkdir. Əsgərlərimizin qətiyyəti təkcə bizim bölmənin əsgərlərinin deyil, ümumən bütün əsgərlərin qətiyyətidir. Bu qətiyyət mənəvi-psixoloji hazırlığın səviyyəsinin göstəricisidir.

Mənə elə gəlir ki, baxışları qarşı tərəfdən üzülməyən əsgərlərin hər biri ruhən döyüş növbətçiliyi aparan əsgərlərin yanındadı.

- İctimaiyyətin inamı, güvənci Azərbaycan əsgərinin döyüş əzmini, qələbə ruhunu daha da artırır, müəyyən mənada, onun tərkib hissəsi olur.

- Müqəddəslik, müqəddəsliyin işığı haqqında səsləndirilən bütün fikirlər bir mətləb üçündü: Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızın işğaldan azad edilməsi.

Əsgərlər biri digərini tamamlayan fikirlər deyir. Deyilənlər Vətənə sevgi kimi dinlənilir. Əsgərlərdən soruşuram ki, Vətənin əsgəri olmaq xarakterinizdə dəyişiklik yaradıbmı? Sual kimi səslənən bu fikirlərə görə əsgərlərin qaşları bir anlığa çatılır. Sorğu əsgərlərin ürəyini bir qədər duyğusallıqla, bir qədər çılğınlıqla silələyir. Əsgərlər belə anları da hərbi xidmətin tərkib hissəsi bilir, o anların mahiyyətini yaşantılarına köçürürlər.

- Son illərdə ordumuzda həyata keçirilən irimiqyaslı islahatların, genişmiqyaslı təlimlərin hər biri istər ayrılıqda, istərsə də vəhdətdə ordunun güc amili deməkdir. Əsgərlərə "Siz o gücün əsgərisiniz", - deyirəm. "Hərbi anda, torpağa, Vətənə sədaqətlə xidmət edən Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaq", - kəlmələri bayaqdan bəri ürəyimizi silələyən inamın haləsinə dönür...

Əsgərlərdən şəhidlərimizin ruhunun arzuladığı kimi döyüşməyin nə olduğunu soruşuram. Əsgərlər deyirlər ki, şəhidlərin ruhu qətiyyətlə döyüşməyi, ölümün gözünə dik baxmağı, ölümü gülləleyib qələbə yoluna çıxmağı, qələbə qazanmağı arzulayır. Belə əsgər olacağıq.

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun heykəlinin açılışı oldu

*Azərbaycan Azərbaycanda yaşayanların hamısının Vətənidi - əgər Azərbaycanı sevirsə. Bu və ya digər səbəbdən əsrlərlə Azərbaycan torpağında yaşayıb buranı özünə doğma Vətən bilən digər xalqların da mərd, hünərli oğulları da bu torpaqlara tamah salanlarla döyüşənlərin sırasında olub.*



Ötən əsrin 80-ci illərinin sonlarında başlanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində bu birlik, bu həmrəylik bir daha təsdiqləndi. Digər millətlərdən olan soydaşlarımız da erməni işğalçılarına qarşı döyüşlərə atıldılar... O qəhrəman oğullardan biri də hələ sağlığında "Azərbaycan torpağı mənim doğma yurdumdur. Mən onu qorumağa borcluyam. Müharibənin sonuna kimi döyüşəcəm" deyən yəhudi əsilli tankçı Albert Aqarunovdur.

Bu günlərdə Bakı şəhərində Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun heykəlinin açılışı oldu. Nərimanov rayon İcra Hakimiyyəti, Azərbaycan Dağ Yəhudiləri Dini İcması və




Veteran Tankçılar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən açılış mərasimində dövlət və hökumət rəsmiləri, Müdafiə nazirinin müavini, zabitlər, xüsusi təyinatlı təhsil müəssisələrinin bir qrup kursantı, "N" hərbi hissəsinin tank heyətləri, millət vəkilləri, ölkəmizdə akkreditə olunmuş bir sıra xarici ölkə səfirliklərinin təmsilçiləri, Dünya Dini Liderlərinin II Bakı Sammitinə gəlmiş bir neçə fəxri qonaq və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Qonaqları, mərasim iştirakçılarını salamlayan Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Abdulla Qurbani Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə Milli Qəhrəman, şəhid tankçı Albert Aqarunovun xatirəsinə Bakı şəhəri, Nərimanov rayonunda adını daşıdığı küçədə abidəsinin açılış mərasimini açıq elan etdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu, hərbi orkestr Azərbaycan Respublikasının Dövlət himnini ifa etdi.

Polkovnik Abdulla Qurbani tədbirdə Albert Aqarunovun 23 illik qısa ömür və keçdiyi döyüş yolundan danışdı. Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələrindən Qarabağ müharibəsində azərbaycanlılarla birlikdə çiyin-çiyinə döyüşdüyünü bildirdi. "Tank komandiri Albert Aqarunov yəhudi xalqının oğlu kimi Qarabağ döyüşlərində iştirak etdi, Şuşanın müdafiəsi zamanı qəhrəmanlıqla şəhid oldu. Azərbaycan xalqı, Azərbaycan dövləti hər zaman Albert Aqarunovun xatirəsini əziz tutur. Albert Aqarunov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. Vaxtilə təhsil aldığı Suraxanı rayon 154 saylı orta məktəb bu gün qəhrəmanın adını daşıyır. Məktəbin önündə büstü qoyulub. Eyni zamanda, Albert Aqarunovun adının əbədiləşdirilməsi məqsədilə Suraxanı rayonunda vaxtilə yaşadığı binaya və Quba rayonunun Qırmızı qəsəbəsində xatirə lövhələri vurulub. Nərimanov rayonunda adına küçə verilib. Bu gün həmin küçənin başlanğıcında Milli Qəhrəmanın heykəli ucalır."

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun keçdiyi həyat yolunun hər bir gəncə örnək olduğunu və onun xatirəsinin Azərbaycanı sevən insanların qəlbində daim yaşayacağını bildirdi. Azərbaycandakı tolerant və multikultural mühitin tarixən müxtəlif xalqların buraya gəlib məskunlaşmasında mühüm rol oynadığını xüsusi vurğulayaraq qeyd etdi ki, Azərbaycanda digər yerlərdən fərqli olaraq antisemitizmin olmaması onların burada yaşamasını təmin edib. "Yəhudi xalqı tarixən Azərbaycan xalqının həyatında yaxından iştirak edib. Milli Qəhrəman Albert Aqarunov bu xalqın oğludur. O, Şuşanın müdafiəsi zamanı qəhrəmancasına həlak olub. Onun Vətən sevgisi Azərbaycan xalqının multikulturalizm mədəniyyətindən irəli gəlir. Albert Aqarunovun da adı əbədi yaşayacaqdır".



Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun salamlarını tədbir iştirakçılarının diqqətinə çatdırdı. Nazir müavini bildirdi ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların xatirəsi, onların ailə üzvləri, qazilər daim ölkəmizin Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqətindədir. Bugünkü tədbir də bunun əyani sübutudur. Müdafiə Nazirliyinin rəhbərliyi və Azərbaycan Ordusunun şəxsi heyəti adından abidənin açılışında zəhməti olan hər kəsə təşəkkürünü bildirən nazir müavini çıxışının sonunda onu da qeyd etdi ki, Albert Aqarunovun və Vətən uğrunda canından keçən bütün şəhidlərimizin əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaq. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuş Azərbaycan Ordusu dövlət başçısının qarşımızda qoyduğu istənilən tapşırığı icra etməyə qadir və hazırdır.

Xalq rəssamı Ömər Eldarov Milli Qəhrəman Albert Aqarunovun xatirəsinə ucaldılan heykəlin ilk ideyasını onun komandiri olmuş Hacı Əzimovun verdiyini dedi, heykəlin müəlliflərini - Azərbaycan Rəssamlıq Akademiyasının heykəltaraşlıq kafedrasının müəllimləri heykəltaraşlar Rahib Qarayevi və Zamik Rzayevi tədbir iştirakçılarına təqdim etdi.

Açılış mərasimində iştirak etmək üçün İsraildən Bakıya gələn Milli Qəhrəmanın qardaşı Rantik Aqarunov qardaşının xatirəsinin daim əziz tutulduğuna və onu unutmadıqlarına görə Azərbaycan dövlətinə və xalqına minnətdarlığını bildirdi.

Sonda Milli Qəhrəmanın heykəlinin üzərindən ağ parça götürüldü, heykəl açıq yaşayış ömrü qazandı, önünə əklillər qoyuldu, gül dəstələri düzüldü.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Rusiya nəşri: SSRİ-də ən hay-küylü terror aktlarını ermənistanlı millətçilər törədiblər

*"SSRİ-də ən hay-küylü terror aktlarını ermənistanlı millətçilər törədiblər". Rusiyanın "Versii" nəşrində dərc olunmuş məqalə bu sərlövhəni daşıyır. Müəllif 1977-ci il yanvarın 8-də Moskvada törədilmiş və yeddi insanın ölümünə səbəb olmuş terror aktlarından bəhs edib.*

AZƏRTAC xəbər verir ki, məqalədə böyük hay-küyə səbəb olmuş həmin cinayətin istintaqı yer alıb. İstintaqı SSRİ DTK-nın əməkdaşları aparıb və təhqiqat onları Yerevana aparıb çıxarıb. Müəllif yazır: "DTK-da Ermənistanda baş verənlərdən yaxşı xəbərdar idilər. Üzdə "xalqlar dostluğu"nun bəyan edilməsinə baxmayaraq, ölkənin müxtəlif bölgələrində alışan və sönməyən millətçilik ocaqları vardı". Məqalədə sonra Yerevanda qondarma "soyqırımı"nın 50 illiyin münasibətilə keçirilən matəm mitinqinin etiraz marşına çevrildiyi diqqətə çatdırılır. Qeyd olunur ki, nümayişçilər Dağlıq Qarabağ və Naxçıvanın Ermənistana verilməsini tələb edirdilər. DTK nümayişi dağıda bilib, lakin bu, millətçiliyin daha da güclənməsinə və respublikada Ermənistanın SSRİ-dən müstəqilliyini elan edən gizli Milli Birlik Partiyasının yaranmasına gətirib çıxarıb.

Sonradan məlum olduğu kimi, yanvar partlayışları erməni terrorçularını daha da ruhlandırıb və onları növbəti aksiyalar hazırlamağa sövq edib. Bu dəfə onların hədəfi Moskvanın Kursk vağzalının gözləmə zalı olub. Plana görə, insanlarla dolu olan bu zalda üç ədəd ildəqayırma güclü bomba partladılmalı idi. Lakin xoşbəxtlikdən terrorçular buna nail ola bilməyiblər.

Uzun sürən istintaqdan sonra general Vadim Udilovun rəhbərlik etdiyi qrup terrorçular Akop Stepanyanı, Zaven Bağdasaryanı və Stepan Zatikyanı həbs edib. Cinayət işinə SSRİ Ali Məhkəməsinin qapalı iclasında baxılıb. Terrorçular cinayət törətməkdə təqsirini etiraf etməyiblər. Zatikyanın çıxışından epizod qalıb: "Mən özüm müttəhim yox, ittihamçıyam. Sizin məni mühakimə etmək haqqınız yoxdur, belə ki, jidorus imperiyası hüquq dövləti deyil". O, son sözündə deyib: "İnsanlara çatdırın ki, Stepanın axırıncı sözləri belə olub: qisas, qisas və yenə də qisas!". 1979-cu il yanvarın 24-də məhkəmə hər üç müttəhim barəsində ölüm hökmü elan edib.



# Heydər Əliyev adına AAHM-də təhsil alan xarici kursantların sayı hər il artır

1939-cu ildə əsası qoyulan Azərbaycan Ali Hərbi Məktəbində yaradılan infrastruktur təhsil prosesinin müasir standartlara uyğun şəraitdə tədrisinə imkan yaradıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hazırda ali təhsil ocağının 4 fakültəsinin 21 kafedrasında 23 hərbi ixtisas üzrə zabitlər hazırlanır. Təhsil ocağının daxilində hazırda 10-dan çox müxtəlif ixtisaslı məktəbin fəaliyyəti cəmləşdirilib. Təhsil müəssisəsində yaradılan müasir tədris şəraiti ali məktəbdə yerli kursantlarla yanaşı xarici dövlətlərdən olan kursantların da yüksək səviyyədə hərbi təhsil almasına əlverişli imkan yaradıb.

Son illər hərbi məktəb bir çox xarici dövlətlərin hərbi təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində ciddi addımlar atıb. Məhz bu əlaqələrin nəticəsidir ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xarici dövlətlərdən, xüsusilə Qırğızıstan, Tacikistan və Əfqanıstandan olan kursantlar təhsil alırlar. Həmin ölkələrin kursantları yerli kursantlarla bərabər nəzəri və praktiki dərslərdə elmi və hərbi biliklər qazanırlar. O cümlədən onlar simulyator zallarında atışların həyata keçirilməsi, artilleriya, aviasiya vasitələrinin və digər zirehli texnikanın, eyni zamanda, döyüş əməliyyatlarının idarə olunması kimi vərdişlərə yiyələnirlər.

Qeyd edək ki, Ali Hərbi Məktəbdə kursantların elektron və kompüter siniflərində elmin son nailiyyətləri ilə tanış olması, idman zallarında fiziki hazırlıqlarının artırılması və asudə vaxtlarının səmərəli təşkili üçün də lazımi şərait yaradılıb.

Artıq Qazaxıstan və Özbəkistan da öz kursantlarının Azərbaycan Ali Hərbi Məktəbində gələcəyin yüksək ixtisaslı zabitləri kimi yetişməsi üçün müraciət edib.

Onu da bildirək ki, hərbi təhsil sahəsindəki əməkdaşlıq çərçivəsində bu gün, eyni zamanda, azərbaycanlı kursantlar da dünyanın bir çox dövlətlərinin nüfuzlu ali hərbi məktəblərində təhsil alırlar. Bu əməkdaşlıq prosesi isə yalnız bir məqsədə - peşəkar zabit kadrlarının hazırlanmasına xidmət edir.

*Gənc zabitlərimiz*

# Vətən ruhumuzun başlanğıcıdır

*İnsan dünyaya gəldiyi gündən daxili zənginliyə can atır. Eyni zamanda insan dünyanın məhz onun iradəsinin, əqlinin, fiziki gücünün sayəsində qurulacağını düşünür. Ancaq fikirləşmir ki, daxili zənginliyə nail olmağın yolu vətənpərvərlik duyğusundan keçir. İnsan ömrünün pillələri var ki, o, bu pillələrlə vətənpərvərlikdən ilham alaraq öz istəyinə, arzusuna, məqsədinə doğru addım atır. Xoşbəxt o adamdır ki, atdığı addımların hamısı uğurlu olur və bu uğur, bu səadət onu zirvələrə yüksəldir, bir ocağın övladlığından çıxarıb, bir elin sevimlisinə çevirir. Necə ki, Vətən keşiyində dayanan gənc zabit leytenant Nuhi Əliyev kimi.*



Zabitə ilk olaraq “əsgərlərin formalaşması prosesində hansı kriteriyalara üstünlük verirsiniz” sualı ilə müraciət etdik.

Zabit N.Əliyev cavabına Ümummilli Liderin "Ən şərəfli peşə Vətəni, torpağı qorumaq peşəsidir" sözləri ilə başladı. “Tabeliyimdə olan şəxsi heyəti vətənpərvərlik ruhunda tərbiyə edir və gələcəkdə şərəfli peşənin - hərbçi peşəsinin daimi daşıyıcıları olmasını istəyirəm. Bugünkü gənc əsgərin sabahkı döyüşdə qalib olmasını arzulayırsansa, mütləq onu vətənpərvərlik ruhunda tərbiyə etməlisən. Silahdan, texnikadan, döyüş hazırlığından və fiziki hazırlıqdan vacib amil əsgərin istənilən döyüşə mənəvi-psixoloji hazırlığıdır.”

"Son dövrlər qazanılan uğurlar Azərbaycan əsgərinin vətənpərvərlik ruhunun yüksək olduğunu göstərir", - deyə zabit sözünə davam etdi. - Aprel döyüşləri sübut etdi ki, Azərbaycan əsgərini uğura aparan, öz dişi və dırnağı ilə ölməzliyə qovuşduran və səsləyən bir səs var. O səs Vətənin səsidi! O səs gündən-günə böyüyür və səngərdən-səngərə yayılır. O səs İlahi səsdir. O səs qocalmır, daim yaşayır və Azərbaycan əsgərini döyüşdən-döyüşə səsləyir.

Vətənin keşiyində durmaqdan qürur duyduğunu deyən zabit bildirdi ki, bu savaşa bir gün son qoyularaq, onun da iştirakı ilə torpaqlarımız işğaldan azad olunacaq, şəhidlərimizin ruhu qarşısında öz borcunu yerinə yetirmiş olacaq. Bunu xalqımızın igid oğullarının, Azərbaycan Ordusunun şəxsi heyətinin Prezident, Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında edəcəklərinə inandığını da qeyd etdi.

Hərbi qulluqçu onu da bildirdi ki, yaxşı hərbçi gərək bu peşəni sevsin və bu peşənin qədrini bilsin: "Mən fəxr edirəm ki, hərbçiyəm. Hərbçi olmaq hələ şərt deyil, yaxşı hərbçi olmaq əsasdır. Yaxşı hərbçi öz peşəsini, işini sevməlidir. Əgər hərbi qulluqçu öz peşəsini sevmirsə, ondan yaxşı hərbçi ola bilməz. Buna görə də hər bir hərbi qulluqçu sözlərinə və hərəkətlərinə məsuliyyətlə yanaşmalı, hərbçi nüfuzunun keşiyində durmalıdır".

Gənc zabit onu da qeyd etdi ki, bilik, təcrübə, nizam-intizam və ən əsası Vətən sevgisi bizləri qələbəyə daşıyacaq. “Buna adımız kimi inanırıq. Bu inancın işığı və Ali Baş Komandanımızın rəhbərliyi altında xalqının, millətinin, dövlətinin və bütöv məmləkətinin yükünü çiyinlərində daşımaq məsuliyyətini üzərinə götürən ordumuzun gücü sayəsində Qələbə çox uzaqda deyil.”

Bu sözlərdən sonra başqa söz deməyə ehtiyac duymadıq. Ancaq yolboyu beynimə bir fikir hakim idi: "Vətən ruhumuzun başlanğıcıdır".

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# “Jurnalistlərin konfliktlərdə və risklərdə davranma təlimləri” başa çatdı

*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin tərəfdaşlığı ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin təsis etdiyi "Konflikt jurnalistikası məktəbi" adlı birgə layihənin başa çatması ilə bağlı Hərb Tarixi Muzeyində tədbir keçirildi. Tədbirdə Müdafiə Nazirliyinin zabitləri, ictimaiyyət nümayəndələri və Bakı Dövlət Universitetinin nümayəndəsi iştirak etdilər.*



Layihənin rəhbəri Əlisəfa Mehdiyev bildirdi ki, "Dinc Dünya" Araşdırma Mərkəzi təhlükəli şəraitlərdə işləməsi ehtimal olunan jurnalistlərə beşinci ildir ki, Müdafiə Nazirliyinin zabitləri ilə Azərbaycan Ordusunun poliqonlarında təlim keçir. Layihənin rəhbəri belə təlim bazasının yaradılmasına görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirərək dedi ki, cəbhə-poliqon təlimlərində topladığımız səriştə və jurnalistika fakültəsinin müəllimləri ilə hazırlanan tədris proqramı ölkəmizdə ilk dəfə Konflikt Jurnalistikası Məktəbinin Müdafiə Nazirliyinin bazasında və BDU-nun jurnalistika fakültəsinin birbaşa tərəfdaşlığı ilə yaradılıb. "Əsas məqsədimiz media nümayəndələrinə döyüş, savaş jurnalistikasının metodologiyasını öyrətməkdir. Ona görə də təlimlər birbaşa cəbhə bölgələrində keçirilir. Təlimlərə peşəkar jurnalistlərlə yanaşı, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin tələbələri də cəlb olunurlar. İştirakçılara birinci mərhələdə həftədə bir gün olmaqla - şənbə günləri Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində peşəkar zabit heyəti tərəfindən müxtəlif mövzularda mühazirələr keçirildi. Dərslərdə jurnalistlər zabitlərin verdiyi məlumatları həvəslə öyrənirdilər. Təlimin gedişində iştirakçıları maraqlandıran suallar mütəxəssislər tərəfindən ətraflı cavablandırılırdı".

Konflikt jurnalistikası məktəbinin icraçı direktoru Teymur Quliyev iştirakçıları təbrik edərək təlimin ikinci mərhələsində iştirakçıların nəzəri vərdişlərinin də yanaşı, praktiki vərdişlərinin də təkmilləşdirildiyini bildirdi. "Bunun üçün ön xətt bölmələrində və müxtəlif poliqonlarda Dağlıq Qarabağın relyefinə uyğun planlaşdırılaraq, iştirakçılara praktiki dərslər keçirildi. Burada iştirakçılara topoqrafik xəritələrin şərti işarələrindən istifadə qaydaları, yaralanma zamanı ilkin tibbi yardım göstərilməsi, döyüş meydanından yaralının təxliyə olunması, sürünə-sürünə irəliləmə, düşmənlə əlbəyaxa olanda özünü müdafiə, odlu və soyuq silahla silahlanmış düşməni zərərsizləşdirmə, minalanmış sahələrdə ehtiyatlı hərəkət, kütləvi qırğın silahları, onlardan müdafiə qaydaları və digər hərəkətlər praktiki olaraq nümayiş etdirildi. Şərti döyüş meydanına media nümayəndəsinin hansı mövqedə dayanması izah olunduqdan sonra iştirakçılar atıcı silahlardan təlim atış çalışmalarını yerinə yetirdilər".

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabiti polkovnik-leytenant Elmar Zeynalabdinov düşmənlə təmas xəttində baş verən hadisələri ictimaiyyətə ilk mənbədən, dolğun və dəqiq çatdırmağın vacib olduğunu vurğuladı. "Düşmənlə təmas xəttindən xəbər hazırlayarkən jurnalistlər dövlət tərəfindən mühafizə edilən və yayılması dövlətimizin təhlükəsizliyinə ziyan vura biləcək məlumatların yayılmamasına xüsusi diqqət yetirməlidirlər. Belə məlumatlar yayılarsa, heç bir çətinlik çəkmədən düşmən bir sıra məxfi məlumatları ələ keçirər. Hərbi texnikaların hərəkət istiqaməti, dislakasiya nöqtəsi, şəxsi heyətin və silah-sursatın sayı, hərbi təyinatlı yeni növ maddələrin xüsusiyyətləri və texnologiyaları haqqında informasiyaları yaymaq qanunla qadağandır. Bütün bunları nəzərə alaraq, kütləvi informasiya vasitələri də əməkdaşlarını cəbhə bölgəsinə göndərməzdən öncə onların peşəkarlıq səviyyəsini yoxlamalıdır. Gələcək döyüşlərdə ictimaiyyətin informasiya təminatının ödənməsi üçün peşəkar media nümayəndələrinin hazırlanmasında "Konflikt jurnalistikası məktəbi"nin böyük önəmi vardır. Hesab edirəm ki, təlimi uğurla başa vuran jurnalistlər yazacağı materiallarda məsuliyyət hiss edib, bacardığı qədər peşəkarcasına yanaşmaqla cəmiyyətə dolğun məlumat çatdıracaqlar. Keçirilən kurslar həm də jurnalistlərin gələcəkdə Müdafiə Nazirliyində akkreditasiyadan keçmələrində böyük rol oynayacaq".

Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə, ehtiyatda olan polkovnik-leytenant Əfqan Əliyev, BDU-nun jurnalistika fakültəsinin professoru Sabir Məmmədli və digərləri məktəbi uğurla başa vuran təlimalanları təbrik edərək, hərbi sahədən yazan jurnalistlərin təcrübələrinin artırılması baxımından təlimin əhəmiyyətini xüsusi vurğuladılar.

Tədbirin gedişində uğurla icra olunan layihə çərçivəsində keçirilən təlimlər hərbi mövzuda yazan, yazacaq jurnalistlərin formalaşdırılması ilə bağlı ilkin addım kimi dəyərləndirildi. Bildirildi ki, layihə çərçivəsində keçirilən təlim hərbi mövzuda yazan jurnalistlərin peşəkarlıqlarının artırılması, bu sahədən yazan jurnalistlərin hazırlanması baxımından da mühüm addımdır.

Tədbirin sonunda "Jurnalistlərin konfliktlərdə və risklərdə davranma təlimləri"nin tam kursunu müvəffəqiyyətlə başa vuran iştirakçılara diplomlar təqdim olundu, xatirə şəkli çəkildi.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Asudə vaxt səmərəli təşkil olunur



Cəbhə bölgəsində müasir tipli hərbi şəhərciklərin tikilməsi, şəxsi heyətin hərtərəfli təminatı dövlətin orduya yüksək diqqət və qayğısının təzahürüdür. Son illərdə hərbi qulluqçuların xidmət şəraitinin daha da yüksəldilməsi istiqamətində genişmiqyaslı işlərin görülməsi ordu quruculuğunda mühüm nailiyyətlər hesab edilir.

Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətə yaradılan şərait də dediklərimizin təsdiqidir. "Açıq qapı" günlərində əsgər valideynlərinin, onların yaxınlarının, ictimaiyyət nümayəndələrinin, veteranların, məktəblilərin müasir tipli hərbi hissələrin şəraiti ilə yaxından tanış olması ənənəyə çevrilib.

Düşmənlə yaxın məsafədə yerləşən hərbi hissənin bu bölməsi üçün ən müasir mühəndis-istehkam qurğusu tikilib istifadəyə verilib. Burada kiçik əsgər yataqxanası, yeməkxana, ideoloji otaq, məişət və yuyunma otağı zəruri avadanlıqlarla təchiz olunub. Əsgərlərin asudə vaxtlarının səmərəli təşkili üçün də lazımi şərait yaradılıb. Onların asudə vaxtlarını necə keçirmələri ilə maraqlandıq. Məlum oldu ki, əsgərlər "Azərbaycan Ordusu" qəzetində dərc olunan məqalələri, bu sıradan idman xəbərlərini və dünya ordularındakı ən yeni silah və texnikalarla bağlı məlumatları oxuyurlar. Şahmat və dama oyunlarını çox sevirlər. Televiziyalarda hərbi vətənpərvərlik verilişlərinə maraqla baxırlar.

Zabit Ədalət Novruzov bildirdi ki, əsgərlər asudə vaxtlarında qəzet, jurnal, bədii kitablar, tarixi, detektiv janrda yazılmış əsərlər oxuyur, televizorda maraqlı konsert proqramlarını, idman yarışlarını, xüsusilə futbol yarışmalarını, Azərbaycan filmlərini, qəhrəmanlarımıza həsr edilən sənədli filmləri izləyirlər. Müstəqillik mübarizəsinin və müharibənin nəticəsi kimi 20 Yanvar, Xocalı, Meşəli, Bağanis Ayrım faciələrini izləyən əsgərlərimizin düşmənə nifrət hissi daha da artır. Əsgərlərimiz torpaqlarımızı işğaldan azad etməyə daim hazırdırlar".

Əsgərlər Zəki Babazadə, İlkin Nərimanov, Elmir Abdullazadə, Rəhman Xəlilov asudə vaxtlarının səmərəli təşkil olunduğunu dedilər. Onlar onu da bildirdilər ki, məsuliyyətli döyüş növbətçiliyindən sonra istirahət edib televiziya verilişlərini izləyirlər. "Burada döyüş, fiziki hazırlığımızı artırmaqla yanaşı, asudə vaxtımızı da səmərəli keçiririk. Bunun üçün bölməmizdə bütün şərait yaradılıb. Şahmat və dama yarışları, intellektual bilik yarışmaları da keçiririk. Bütün bunlar bizim mənəvi-psixoloji hazırlığımızda mühüm rol oynayır".

Sonra şəxsi heyətin səliqəli və gərəkli avadanlıqlarla təchiz edilmiş məişət otağı ilə də tanış olduq. Burada əsgərlərimiz geyim formalarını qaydaya salır, ütüləyir, səliqə-sahmanlarına xüsusi zaman ayırırdılar. Bərbər üçün ayrılmış guşə də əsgərlərimizin xidmətindədir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**



# Əlahiddə Ümumqoşun Orduda voleybol birinciliyinə start verilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında voleybol birinciliyinə start verilib.

Olimpiya sistemi ilə keçirilən və 5 gün davam edəcək yarışlarda 18 komanda mübarizə aparır.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Voleybol Federasiyası və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdikləri birincilik Naxçıvan Olimpiya İdman Kompleksində keçirilir.

# "The Press Herald" erməni separatçılarının Amerika tərəfindən qəbul edilməməsini çağıran məqalə yayıb

ABŞ-ın "The Press Herald" qəzetində oktyabrın 30-da özünü Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin "xarici işlər naziri" kimi təqdim edən Masis Mailiyanın ABŞ-ın paytaxtı Vaşinqtona səfərinə etiraz edən Azərbaycan icmasının fəal üzvü Tərlan Əhmədovun müraciəti dərc olunub. Məqalədə Azərbaycanın Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğal edildiyi və Ermənistanın vassal dövlət olduğu bildirilir. Həmçinin qeyd olunur ki, Qarabağ müharibəsi vaxtı erməni silahlı qüvvələri hərbi cinayətlər törədiblər.

Qeyd edək ki, oktyabrın 30-da Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərinin sakini olan, özünü "xarici işlər naziri" sayan Masis Mailiyan Ermənistan və erməni lobbisinin səyləri nəticəsində səfəri zamanı ABŞ Konqresinin Reybörn binasında separatçı rejimi təbliğ edən və Azərbaycan ərazilərinin işğalına dəstək qazanmaq məqsədi daşıyan tədbir keçirib. Vaşinqtonun Azərbaycan icmasının üzvləri bina qarşısında etiraz aksiyası keçirmişdi.

**AZƏRTAC**

# "Hər əsgəri oğlum bilirəm"

*Şəxsi heyətin sağlam mənəvi-psixoloji durumu və döyüş ruhu qələbəni təmin edən ən başlıca amillərdəndir. Azərbaycan əsgərinə göstərilən diqqət və qayğı, yaradılan yüksək məişət şəraiti onların xidmətlərinin uğurla keçməsi üçün zəmin yaradır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı hər an əsgərlərin üzərindədir. Bu qayğının nəticəsidir ki, əsgərlərin məişət şəraiti yüksək səviyyəyə çatdırılır. Hərbi hissələrimizdə yeni yeməkxanalar, yataqxanalar, hamam və camaşırxanalar şəxsi heyətin istifadəsinə verilir.*



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində əsaslı təmir işlərinin aparılıb, şəraitin müasir standartlara cavab verəcək şəkildə təşkil olunması istiqamətində uğurlu işlər görülüb. Yataqxana, hamam və camaşırxana, ideoloji otaq, idman və digər məişət otaqları ən son avadanlıqlarla təchiz olunub. Ürəkaçan şərait əsgərləri daha da nümunəvi xidmət etməyə ruhlandırır.

Zabit Ramin Həsənov bildirdi ki, dövlətimizin orduya yüksək qayğısı şəxsi heyətə xoş ovqat və döyüş ruhu aşılayır. "Hər kəs göstərilən qayğıdan ruhlanaraq Vətən qarşısında borcunu məsuliyyət hissi ilə yerinə yetirir. Mürəkkəb təbii şəraitdə döyüş növbətçiliyi aparan şəxsi heyətin qayğıları ordu rəhbərliyinin diqqət mərkəzindədir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov, ordunun digər rəhbər heyəti hərbi hissəmizə gələndə əsgərlərin qayğıları ilə maraqlanır, onlarla çay süfrəsində söhbət edir. Ordu rəhbərliyinin əsgərlərlə belə səmimi ünsiyyət yaratması şəxsi heyətə ruh yüksəkliyi aşılayır. Bu etimada cavab olaraq hər bir əsgərimiz üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlir, verilən tapşırıqları məsuliyyət hissi ilə yerinə yetirir. Belə yüksək əhval-ruhiyyədə olan əsgərlərimiz Vətənimizin işğalda olan ərazilərini düşmənlərdən azad etmək üçün Ali Baş Komandanın döyüş əmrinə hazırdırlar".

Yeməkxanada əsgərlər üçün yeməkləri və salatları hazırlayan, ümumiyyətlə, burada bütün məişət işlərini bacarıqla yerinə yetirən qadınlarla söhbətləşdim.

Aşpaz Bibinisə Rüstəmova işini çox sevdiyini dedi. "Əsgərlərimiz üçün dadlı yemək və salatlar hazırlamağı özümə mənəvi və xidməti borc bilirəm. Mən də inanıram ki, əsgərlərimizin hünəri ilə ata-baba torpaqlarımız tezliklə işğaldan azad olacaq. Dövlətimizin rəhbərliyinə, şəxsən cənab İlham Əliyevə minnətdaram ki, ordumuzun, əsgərlərin qayğısına belə qalır."

Aşpaz İradə Həsənova dedi ki, əsgərlərə öz doğma övladlarımız kimi xidmət edirik. "Bu zala daxil olan hər bir əsgəri öz balam, övladım bilirəm. Onlar hazırladığımız yeməkləri iştahla yeyəndə, üzlərində təbəssüm yarananda mən də məmnun qalıram. Hər bir əsgər anasının ürəyi rahat ola bilər ki, övladlarına ana qayğısıyla xidmət göstərilir."

Bu günün menyusunda küftə, qarabaşaq, vermişel qızartması, qıyma ət, meyvə kompotu və alma var. Gözəl təamların hər biri keyfiyyətli və ləzzətli hazırlanıb. Əsgərlər Yamil Şamilzadə, Sahib Teymurov, Turan Əsədov, Tacəddin Əlili və digərləri yeməklərin keyfiyyətindən və dadından razılıqlarını bildirdilər. "Burada bizə dadlı, ləzzətli xörəklər hazırlanır. Yüksək keyfiyyətli ərzaqlardan bişirilən milli çeşiddə yeməklər, mövsümə uyğun salat və şirələr üräyimizcədir."

Əsgər valideynləri hərbi xidmətdə olan övladlarının qidalanması və məişəti sarıdan heç bir narahatlıq duymur. Çünki hərbi hissə və bölmələrimizdə şəxsi heyətin sosial-məişət şəraiti, əşya-ərzaq təminatı yüksək tələblər səviyyəsindədir. Cəbhə xəttində də belə şərait yaradılıb və bunlar "Biz hərbçilərimizlə fəxr edirik" deyən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin orduya, hərbi qulluqçulara diqqət və qayğısının parlaq təcəssümüdür.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## Ovqat

# Vətənsevərlik



Böyük tarixi şəxsiyyət Heydər Əliyev qürurla deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!". Bu kəlamla qürurlananların, bu kəlamı yaşadanların hamısı Ümummilli Liderimizin ideoloji əsgəri olub. İndi də belədi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müasir müstəqil Azərbaycanımızın dövlətçilik memarının azərbaycançılıq ideologiyasını da uğurla davam etdirir; azərbaycançılıq ideologiyası cəmiyyətin bütün sahələrini, eləcə də ordu quruculuğunu əhatələyir.

Müstəqil Azərbaycanın dövlətçiliyinin təməllərindən biri də azərbaycançılıq məfkurəsidir. Bu bəşəri məfkurə Azərbaycan dilini, mədəniyyətini, ədəbiyyatını, milli-mənəvi dəyərləri, adət-ənənələri yaşatmaqdadır; azərbaycançılıq müstəqil Azərbaycanın milli ideologiyası olub, həmişə də belə olacaq. Böyük tarixi şəxsiyyət Heydər Əliyev azərbaycançılığı Azərbaycan dövlətçiliyini möhkəmləndirmək vasitəsi kimi dəyərləndirərək deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq".

Azərbaycançılıq ordu quruculuğunda da uğurla davam etdirilməkdədir.

Milli-mənəvi dəyərləri yaşatmaq vətəndaşlıqdır. Hərbi xidmət mükəlləfiyyətdir, vətəndaşlıq borcudur. Bu borc yerinə yetirilir. Təkcə vətəndaşlıq borcu kimi deyil, həm də mənəvi borc kimi, azərbaycançılığa xidmət kimi yerinə yetirilir. Buna ön xətdə, səngərlərdə daha etibarlı səviyyədə əmin olursan. Ezamiyyətlərdə olanda ön xətdə, səngərlərdə döyüş növbətçiliyi aparan əsgərlərlə söhbətlərimizin mahiyyəti həm də azərbaycançılığa söykənir; azərbaycançılıq ordu quruculuğunu da tam əhatə edir, bu baxımdan mahiyyəti Vətəni, dövləti, dövlətçiliyi qorumaq olan hərbi xidmət də azərbaycançılığın tərkib hissəsidir. Bu qənaəti səngərdə əsgərlərə də demişdim. Əsgərlərdən birinin dedikləri məndə də, zabitdə də, əsgər yoldaşlarında da xoş ovqat yaratmışdı.

- 1988-1991-ci illərdə müstəqillik mübarizlərinin sırasında atam da olub. Onların mübarizəsinin nəticəsi dövlət müstəqilliyimizdir. Mübarizə aparıb dövlət müstəqilliyimizin bərpasına nail olanların əqidəsini biz yaşadırıq. O əqidə azərbaycançılıqdı, yəni, Azərbaycan dövlətçiliyidi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasıdı - torpaqlarımızın işğaldan azad edilməsidir. Hərbi xidmətimiz məhz bunun üçündür. Biz dövləti, dövlətçiliyi qoruyuruq, deməli, azərbaycançılığın əsgəriyik, Hərbi andda deyildiyi kimi, bunun üçün şəhidliyə də hazırıq.

- Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, azərbaycançılıq Azərbaycanı qoruyub saxlamaq, dövlətçiliyi möhkəmlətmək vasitəsidir, - zabit əsgərin fikrini belə tamamladı.

Son illərdə ordu quruculuğunda həyata keçirilən iri-miqyaslı islahatlar da bu ideologiyanın yaşarı olduğunun təsdiqidir. Orduda şəxsi heyətin döyüş hazırlığıyla bir sırada mənəvi-psixoloji hazırlığı da uğurla aparılır. Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, hərbi birlik və birləşmələrdə, hərbi hissələrdə keçirilən kütləvi vətənpərvərlik tədbirləri istər mahiyyətinə, məzmununa, istərsə də hazırlanma metodologiyasına, gedişinə görə bilavasitə azərbaycançılığı ifadə edir. Belə tədbirlərin ssenarisi (müəllifi Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani) Azərbaycan dilinin zənginliklərindən bəhrənilməklə hazırlanır. Ssenarilərdə bu və ya digər fikrin poetik ülgüdə təqdimi də azərbaycançılığın təzahürüdür - Azərbaycan ədəbiyyatına, Azərbaycan poeziyasına ehtiramın, sevginin təzahürüdür. Kütləvi vətənpərvərlik tədbirlərindən birində ictimaiyyətə xitabən səsləndirilən misralar həm aşıladığı fikirlərin gərəkliyinə, həm də poetik dəyərinə görə fərqlənir. Yeni bədii fikir (vətənləşmə) müharibə şəraitinə, deməli, qələbəyə köklənmədə mühüm vasitə kimi vətənləşməyin gərəkliyini xatırladır:

*Bu Vətənin daşı-dağı,*
*Gur bulağı, zərif gülü*
*Çiçəyində ləçəyinin*
*Şehi ilə vətənləşək,*
*Çiçəklərə sığal çəkən*
*Mehi ilə vətənləşək...*

Vətənləşmək Vətən naminə yaşamaq fəlsəfəsinin tərkib hissəsi kimi təqdim olunur və müəyyən mənada ordu-ictimaiyyət münasibətləri, yəni, ordu quruculuğu üçündü...

Şəxsi heyətlə aparılan ictimai-siyasi hazırlıq dərslərinin mövzularının bəzən tarixiliyi, mövzusunun məzmun baxımından dolğun işlənilməsi, fakt və hadisələrin mahiyyətinin mövzuyla uzlaşdırılması ordu quruculuğunda gərəklidir.

Kütləvi vətənpərvərlik tədbirlərinin bəziləri teatrlaşdırılmış formatda keçirilir ki, bu da ideyanın daha məzmunlu açılmasında gərəkli vasitə olur. Beyləqanda keçirilən kütləvi vətənpərvərlik tədbirində ssenariyə əsasən beyləqanlı şəhidlərin bir neçəsinin ruh qiyafəsində gəlişi, əsgərlərə (orduya), iştirakçılara (ictimaiyyətə) müraciətləri duyğusallıqla dinlənildi. Və şəhid atası oğlunun obrazını yaradan əsgəri bağrına basdı: "Özün də, sözün də mənə dərdimi unutdurdu, ay oğul. Bu gündən oğlum bilirəm səni...", - dedi. Bu tədbir də, tədbirdə belə bir görüntü də azərbaycançılığın qüdrətiydi. Azərbaycançılıq isə özlüyündə ordu quruculuğunun mənəvi dayaqlarındandır...

Əsas ideyası azərbaycançılıq olan müstəqil Azərbaycan dövlətində azərbaycançılıq vətəndaşlığı şərtləndirən amillərdən biridir. Azərbaycançılıq ideologiyası əsasında aparılan ordu quruculuğunda uğurlar bu səviyyədədir və davamlı olacaq; azərbaycançılıq ordu quruculuğunun tərkib hissəsidir. Həm də bunun nəticəsidir ki, şəxsi heyətin döyüş əzmi, qələbə ruhu bu səviyyədədir...

Ordu quruculuğu şəxsi heyətin vətənpərvərlik duyğularının artırılmasını da təmin edir.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

## Hərbi texnikalar, silahlar

# Tank əleyhinə "Baryer" raket kompleksi



Ukraynanın tank əleyhinə "Baryer" raket kompleksi Kiyev "Luç" Konstruktor Bürosunda hazırlanıb. 2005-ci ildə "İDEX" sərgisində geniş kütləyə nümayiş etdirilib. Müasir raket kompleksi yarımavtomat lazer şüası üzrə tuşlanan sistemlə təchiz olunub. Hədəfləri aşkar edilərək tuşlanması optik və infraqırmızı nişangahların köməyi ilə həyata keçirilir. Bu da ona müxtəlif hava şəraitində atəş açmağa imkan verir. "Baryer" raket kompleksində R-2 raketindən istifadə edilir. R-2 raketinin uzunluğu 1270 mm, konteynerlə birlikdə uzunluğu 1360 mm, raketin kalibri 130 mm, çəkisi isə 16 kiloqramdır.

Modernləşdirilmiş "Baryer" tank əleyhinə daşınan raket kompleksidir. Zirehli texnika və zirehli gəmilərdə quraşdırmaq üçün nəzərdə tutulub. ZTR-3E, ZTR-4, ZTR-7 və modernləşdirilmiş təkərli PDM-1, belarus istehsallı "Karakal" tank əleyhinə raket kompleksində quraşdırılır. Modernləşdirilmiş variantdan biri də tank əleyhinə "Baryer-V" raket kompleksidir. Bu kompleks helikopterdə quraşdırılmaq üçün təyin edilib və R-2V raketi ilə təchiz olunub. Onun buraxıcı konteynerinin uzunluğu 1917 millimetrə qədər artırılıb. Maksimal atış məsafəsi 7500 metr, televizion-teplovizion müşahidə sistemilə birlikdə lazerli avtomat tuşlama sistemi ilə də təchiz edilib.

Kompleksin "Baryer-VK" - "Baryer-V" variantlarının isə gəmi və qayıqlarda quraşdırılması nəzərdə tutulub.



"Baryer" tank əleyhinə raket kompleksinin tuşlama cihazının çəkisi 14.6 kiloqram, maksimal uzaqlığa uçuşu 23 saniyə ərzində həyata keçirilir. Onun döyüş hissəsi kummulyativ-tandemdir. Atəş uzaqlığı isə 100 metrdən 5000 metrə qədərdir. Temperatur diapazonu mənfi 40 və müsbət 60 dərəcə selsiumdur.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Növbəti ABŞ-Cənubi Koreya hərbi hava təlimləri təxirə salınıb



ABŞ və Cənubi Koreyanın Müdafiə nazirlikləri Şimali Koreya ilə aparılan diplomatik danışıqları dəstəkləmək üçün növbəti birgə hərbi hava təlimlərini təxirə salmağı qərara alıblar.

Tailandın paytaxtı Banqkokda təşkil edilən ASEAN ölkələrinin Müdafiə nazirlərinin sammiti çərçivəsində iki ölkənin Müdafiə nazirləri Mark Esper və Con Qyon-doo birgə mətbuat konfransında belə açıqlama veriblər.

"Biz diplomatik mühitə və sülhü gücləndirməyə töhfə vermək üçün belə bir xoşniyyətli qərar qəbul etdik", - deyən Mark Esper Şimali Koreyanı bu addıma eynilə cavab verməyə, heç bir ilkin şərt və tərəddüd olmadan nüvə silahsızlaşdırılması ilə bağlı danışıqlar masasına geri dönməyə çağırıb.

Qeyd edək ki, ABŞ və Cənubi Koreya noyabrın sonlarında "Vigilant Ace" adlı hərbi təlimlərin qısaldılmış variantını keçirməyi planlaşdırmışdı. Koreya Xalq Demokratik Respublikası (KXDR) bu təlimlərə qarşı sərt mövqeyini bildirib.

Bu, KXDR ilə diplomatik danışıqları dəstəkləmək üçün Vaşinqton və Seulun təxirə saldığı ilk hərbi təlimlər deyil. Bundan əvvəl bir neçə dəfə planlı hərbi təlimlər eyni niyyətlə təxirə salınmışdı.

### Türkiyə polisi Əbu Bəkr əl-Bağdadinin 25 qohumunu saxlayıb




Türkiyənin hüquq-mühafizə orqanları İŞİD qruplaşmasının öldürülən lideri Əbu Bəkr əl-Bağdadinin 25 qohumunu saxlayıb.

Bu barədə ölkənin Baş prokurorluğu məlumat yayıb. Əməliyyat İŞİD qruplaşmasının fəaliyyətinin təhqiqatı çərçivəsində dörd əyalətdə aparılıb. Onlardan 11-i Kırşehir, 5-i Samsun, 3-ü Ordu və 6-sı Şanlı Urfa əyalətlərində keçirilən əməliyyat zamanı saxlanılıb. Saxlanılan şəxslərin 4-ü məhkəmə tərəfindən terror təşkilatında iştirak ittihamı ilə həbs olunub.

İŞİD qruplaşması liderinin 21 qohumu, o cümlədən iki uşaq Türkiyədən deportasiya ediləcək.

Xatırladaq ki, oktyabrın 27-də ABŞ Prezidenti Donald Tramp İŞİD lideri Əbu Bəkr əl-Bağdadinin Suriyada keçirilən əməliyyat nəticəsində öldürüldüyünü elan edib. Terror qruplaşmasına bağlı "Amaq" saytı faktı təsdiqləyib.

### Böyük Britaniyanın Duvr limanında 39 nəfər miqrant saxlanılıb



Böyük Britaniyanın Kent qraflığındakı Duvr limanında 39 nəfər miqrant saxlanılıb.

Dörd kiçik qayığın Duvr limanını keçməsi cəhdinin qarşısı alınıb. Saxlanılan 39 nəfərin İran vətəndaşı olduğu hökumət tərəfindən təsdiqlənib.

Qeyd edək ki, sentyabrda 1 gün ərzində Duvr limanından 86 miqrant saxlanılmışdı.

### Banqladeşdə binada baş verən partlayış nəticəsində azı 7 nəfər ölüb



Banqladeşin Çittaqonq şəhərində beşmərtəbəli binada partlayış baş verib.

Binanın birinci mərtəbəsində qaz xəttində baş verən partlayış nəticəsində 7 nəfər ölüb, 8 nəfər xəsarət alıb. Yalananlar xəstəxanaya yerləşdirilib.

Hadisənin başvermə səbəbləri araşdırılır.

**AZƏRTAC-ın materialları əsasında**

Fiziki hazırlıq

# Daha güclü, daha çevik

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində olduğumuz zaman fiziki hazırlıq məşğələsi keçən əsgərlər diqqəmi cəlb etdilər. Müxtəlif qurğularda normativləri yerinə yetirən əsgərlərin cəld və çevik hərəkətləri mənə çox xoş gəldi. Əsgərlər elə gözəl, elə peşəkar hərəkətlər edirdilər ki, özümü hansısa maraqlı bir idman yarışını izləyən kimi hiss edirdim. Onların qurğulardakı müxtəlif hərəkətlərindən, yüksək fiziki hazırlığa malik olduqlarını seyr etməkdən zövq aldım. Bu ürəkaçan mənzərəyə xeyli tamaşa etdikdən sonra yaxınlaşıb məşğələ iştirakçıları ilə tanış olduq, onlarla söhbət edib, məşğələnin gedişatı barədə danışdıq.*

Məşğələ rəhbəri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Mehman Paşayev məşğələ barədə ətraflı söhbət etdi. O bildirdi ki, yuxarı rəhbərlik tərəfindən təsdiq edilmiş döyüş hazırlığı planına əsasən, şəxsi heyətə mütəmadi şəkildə fiziki hazırlıq məşğələləri keçirilir. "Hərbi xidmətə həvəs göstərən şəxsi heyət fiziki hazırlıq məşğələlərində böyük fəallıqla iştirak edir. Burada xidmət edən hər bir kəs yaxşı dərk edir ki, döyüş zamanı düşmən üzərində qələbə əldə etmək üçün ən başlıca amillərdən biri də fiziki cəhətdən möhkəm olmaqdı. Döyüş şəraitində qarşıya qoyulan tapşırıqları vaxtında yerinə yetirmək, müəyyən bir məsafəni silahsursatla qət etmək üçün yalnız və yalnız fiziki cəhətdən möhkəm olmaq lazımdır. Qeyd etmək istəyirəm ki, idmana böyük maraq göstərən şəxsi heyətimiz keçirilən yarışlarda da yüksək nailiyyətlər əldə edirlər. Onların hər zaman güclü qalmaqları üçün hərbi hissəmizdə rəhbərlik tərəfindən müasir standartlara cavab verən idman şəhərciyi qurulub. Məşğələlərimiz adətən müasir qurğularla təchiz edilmiş idman şəhərciyində keçirilir. Həmçinin şəxsi heyətlə maneələr zolağında da məşqlər keçirik. Əsgərlərimizin dərslərdə həvəslə iştirak etməsi məşğələlərimizin daha da səmərəli olmasını təmin edir. Fiziki hazırlıq məşğələsində iştirak edən gənclərimiz isə hər gün daha da güclü, dözümlü və çevik olurlar. Xidmət dövrlərində yüksək və



ürəkaçan nailiyyətlər və uğurlar qazanırlar".

- Təsdiq edilmiş proqrama uyğun olaraq fiziki hazırlığının təmin edilməsi məqsədilə şəxsi heyətə müxtəlif yaş qrupları üzrə müvafiq normativlər tətbiq olunur. Burada üç min və yüz metr məsafəyə qaçış, turnik, paralelqol, uzanmış vəziyyətdə gövdənin qaldırılması, uzanaraq dayaqda qolların bükülüb açılması, turnikdə aşaraq dayağa qalxma elementləri daxildir. Əminlikdə deyə bilərəm ki, şəxsi heyətimiz qarşıya qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

Əsgər Cahandarağa Ağayev bildirdi ki, hələ kiçik yaşlarından idmana böyük həvəsi olub. Bu həvəs onu müxtəlif idman zallarına, tətami və rinqlərə aparıb çıxarıb. O hər zaman çalışıb ki, ona göstərilən etimadı doğrultsun. Məhz buna görə də keçirilən müxtəlif yarışlarda uğurlar əldə edib. 2008-ci ildə kikboksinq idman növü üzrə keçirilən respublika çempionatında bütün iştirakçılara qalib gələrək, birinciliyi əldə edib. Gürcüstan Respublikasında Uşu-Sanda idman növü üzrə keçirilən yarışda isə ikinci yerə layiq görülüb. Cahandarağa bununla kifayətlənməyib. Keçirilən digər yarışlarda da mükafatçılar arasında olmağı bacarıb. Söhbət zamanı natiq bildirdi ki, fiziki hazırlığını inkişaf etdirmək üçün hərbi hissədə yüksək səviyyədə idman şəhərciyi yaradılıb. Komandirlərin rəhbərliyi altında məşğələlər keçir, idman sahəsində təcrübəsini daha da artırır. Söhbətimizin sonunda Cahandarağa bildirdi ki, ordu sıralarından tərxis olduqdan sonra da idmanla məşğul olaraq uğur və nailiyyətlərini daha da artıraraq bayrağımızı yüksəklərdə dalğalandıracaq.

Əsgər Vasif Abbasovun da Cahandarağa kimi idmana böyük marağı var. Vasif də idmanın kikboksinq növü ilə məşğul olub. Yüksək nailiyyətlər əldə edib. Keçirilən bir sıra yarışların, həmçinin 2016-cı ildə keçirilən respublika çempionatının qalibi olub. Bu gün əsgərlik dövründə də komandirlərinin təcrübəsindən səmərəli istifadə edərək, daha da peşəkarlaşıb. Vasif bildirdi ki, xidmət dövründən sonra da idmanla məşğul olacaq. Vasifin əsas məqsədi işğal altında olan torpaqlarımız uğrunda gedən döyüşlərdə düşməndən qisas almaqdır. Şuşamıza, Laçınımıza, Kəlbəcərimizə... bayrağımızı sancanların sıralarında olmaqdır. Növbəti məqsədi isə üçrəngli bayrağımızı beynəlxalq arenalarda dalğalandırmaqdır.

Əsgərlərdən Nemət Paşayev, Elməddin İsmayılov, Mürsəl Həsənov və digərləri xidmətlərindən, idmandan, idmanda əldə etdikləri nailiyyətlərdən söhbət etdilər. Hər biri vurğuladı ki, idmana sevgiləri çoxdur, ancaq Vətən sevgiləri sonsuzdur. Bu sevgidir onları idmanla məşğul olmağa vadar edən, bu sevgidir onları qələbəyə kökləyən, bu sevgidir "Hər şey Vətən naminə, hər şey Böyük Qələbə naminə!" düşüncəsi ilə yaşadan. Ali Baş Komandanımızın rəhbərliyi ilə bu düşüncənin sahibləri üfüqdə görünən qələbəyə doğru addımlayırlar... Yolumuz isə səngərdə torpaqlarımızın, Vətənimizin, millətimizin keşiyini çəkən mərd və cəsur əsgərlərimizin yanınadır.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində baş verən cinayət hadisələrini araşdıran müstəntiqlərin böyük miqdarda rüşvət tələb etməsi valideynlərin artıq baş bəlasına çevrilib. Qalmaqala səbəb odur ki, hadisə baş verərkən müstəntiqləri hadisəyə hüquqi qiymət verməkdən çox, nə qədər pul qoparacaqları maraqlandırır. Bu səbəbdən də hər müstəntiq cinayət işini araşdırarkən istintaqa maksimum hərbi qulluqçu cəlb etməyə çalışır.

Yuxarı qərargahın zabiti A.Mkrtumyan digər zabit B. Mxitryana zəng edərək istintaq şöbəsinin əməkdaşı T.Hovik tərəfindən yenidən istintaqa cəlb edilməsi məqsədilə onun tabeliyində olan iki hərbi qulluqçunun müstəntiqin sərəncamına göndərilməsi tələbini çatdırıb.

Təkrar istintaqa cəlb edilən işğalçı Ermənistan ordusunun əsgərlərindən biri yezidi kürd əsilli Cndoyan, digəri isə Manukyandır. Adları çəkilən hər iki əsgər Yura Simonyan adlı hərbi qulluqçunun cinayət işi ilə əlaqədar istintaqa cəlb edilirlər.

Hərbi qulluqçuların yaxınlarının dediyinə görə, birinci dəfə istintaqa cəlb edilərkən onlardan rüşvət tələb olunub. Lakin yüksək vəzifəli şəxsin "xahişi" ilə Cndoyan və Manukyanı cinayət işi ilə bağlı istintaqdan kənarlaşdırılıblar. Pul əlindən çıxan müstəntiq qisas almaq məqsədilə, əlavə faktların ortaya çıxdığını bəhanə edərək sonradan onları yenidən istintaqa cəlb edib.

Hadisənin təfərrüatı ictimaiyyətdən gizlədilir. Y.Simonyanın cinayət işi ilə əlaqədar araşdırma davam edir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# İdman

## Cüdoçularımız Avropa kubokunda 4 medal qazanıblar

Cadet European Judo Cup Győr

Macarıstanda noyabrın 16-da yeniyetmələr arasında start götürən cüdo üzrə Avropa kuboku turniri başa çatıb. Qitə turnirinin ikinci günündə təmsilçilərimiz daha bir medal qazanıblar.

Ölkəmizi yarışda 81 kiloqram çəki dərəcəsində təmsil edən Əlirza Şıxəlizadə finala qədər uğurla irəliləsə də, həlledici mərhələdə Fransa təmsilçisi Aleksandre Tamaya məğlub olaraq gümüş medalla kifayətlənib.

Bununla da medalların sayı dördə çatıb. Yarışların birinci günü Nurlan Kərimli qızıl, Hüseyn Allahyarov (hər ikisi 50 kiloqram) və Aydın Rzayev (60 kiloqram) bürünc medal əldə ediblər.

Azərbaycanın 7 idmançısının qatıldığı Avropa kuboku yarışlarında 31 ölkədən 500-dən çox cüdoçu mübarizə aparıb.

## Azərbaycan "Tokio 2020"yə 10 lisenziya qazanıb

TOKYO 2020

Azərbaycan idmançıları indiyədək "Tokio 2020" Yay Olimpiya Oyunlarına 10 lisenziya qazanıblar.

Anna Skidanın (çəkicatma), güləşçilər Mariya Stadnik (50 kq) və Şərif Şərifovun (97 kq), bədii gimnastımız Zöhrə Ağamirovanın, bədii gimnastika üzrə qrup hərəkətləri komandamızın, güllə atıcımız Ruslan Lunyovun, üzgüçümüz Maksim Şemberevin, idman gimnastları Marina Nekrasova və İvan Tixonovun, həmçinin kişilər arasında şose velosipedi növündə 1 idmançımızın dördilliyin zirvə yarışında ölkəmizi təmsil edəcəkləri dəqiqləşib.

Qeyd edək ki, "Rio 2016" Yay Olimpiya Oyunlarına 56 idmançı ilə qatılan Azərbaycan komandası 1 qızıl, 7 gümüş və 10 bürünc medala sahib olub.

## Azərbaycan idmançısı Türkiyədə keçirilən beynəlxalq ağır atletika turnirinin qalib olub



Azərbaycan idmançısı Boyanka Kostova Türkiyənin Qaziantep şəhərində keçirilən və ağır atletika üzrə üçqat Olimpiya çempionu Naim Süleymanoğlunun xatirəsinə həsr edilən beynəlxalq turnirin qalibi olub.

"Tokio 2020" Olimpiya Oyunlarına gümüş səviyyəli lisenziya xarakteri daşıyan turnirdə B.Kostova (59 kq) toplam 219 kiloqram (95+124) nəticə ilə bütün rəqiblərini qabaqlayaraq turnirin qızıl medalını qazanıb.

İyirmidən çox ölkədən 80-ə yaxın atletin çıxış etdiyi beynəlxalq turnirdə ölkəmizi Azərbaycan yığmasının üzvləri Səbinə Əzimova (55 kiloqram), Boyanka Kostova (59 kq), Füqan Əliyev (81 kq) və Tarmenxan Babayev (96 kq) təmsil edirlər.

Səbinə Əzimova 55 kiloqram çəki dərəcəsində toplam 173 kiloqram (75+98) nəticə ilə dördüncü yeri tutub.

## Futzal üzrə Azərbaycan millisinin rəqibi yoldaşlıq oyunları keçirəcək



Futzal üzrə Azərbaycan millisinin dünya çempionatının elit-raundundakı rəqiblərindən Xorvatiya yığması yoldaşlıq oyunları keçirəcək.

Balkan təmsilçisi Ukrayna millisi ilə üz-üzə gələcək. Oyunlar dekabrın 2-də və 3-də Ukraynada keçiriləcək. Qeyd edək ki, elit-raundda millimizin yer aldığı qrupun oyunları gələn il yanvarın 27-dən fevralın 5-dək Xorvatiyada keçiriləcək. C qrupundakı digər iştirakçılar Rusiya və Slovakiya millilərdir.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 827
Nüsxə 3950